# Ümummilli Lider hər bir azərbaycanlı üçün böyük məktəbdir

*Tarix görkəmli şəxsiyyətlərin həyat salnamələri ilə yazılır. Müasir Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev elə bir dahi şəxsiyyətdir ki, onun həyatı və fəaliyyəti ilə bağlı hər məqam tariximizin şanlı səhifəsi, müstəqil Azərbaycanın isə möhkəm bünövrəsidir. Buna görə də onunla bağlı əlamətdar günlər xalqımız, ölkəmiz üçün də xüsusi məna kəsb edir, əhəmiyyətli tarixi hadisə kimi xatırlanır və qeyd olunur. Dövlətçilik tariximizdə silinməz izlər qoymuş, azərbaycançılıq ideyalarını uca tutan, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev ilə Azərbaycanın adı qoşa çəkilir, dövlətçiliyimizin rəmzi kimi qəbul edilir. Anadan olmasının 102-ci ildönümündə də bütün azərbaycanlılar tərəfindən dərin ehtiram və sevgi ilə yad edilən Ümummilli Liderin mənalı həyatı, məhsuldar fəaliyyəti haqqında saatlarla, günlərlə danışmaq, cild-cild kitablar nəşr etmək olar. Bu gün qürur duyduğumuz, haqqında fəxrlə danışdığımız Azərbaycanımız məhz dahi liderin şah əsəridir.*

Dövlətin qorunması, azadlığımızın, müstəqilliyimizin yaşadılması, xalqın qurtuluşu idi. Məhz bu ali həqiqəti Ümummilli Lider Heydər Əliyev həyatının amalına çevirmiş, dövlətçilik ideyasını Azərbaycanın sabahına aparan möhkəm bir sütun kimi ucaldıb. Heydər Əliyevin dövlətçilik baxışları təkcə nəzəri deyil, həm də dərin təcrübi məzmun daşıyır. Bu baxışlar bir konsepsiyadır, tarixi və müasirliyi birləşdirən, dövləti yalnız bu gün üçün deyil, gələcək nəsillər üçün də yaşadan strateji yol xəritəsidir. Onun konsepsiyasında dövlət sadəcə idarəetmə mexanizmi deyil, milli ruhun daşıyıcısıdır. Dövlətçilik isə azərbaycanlıların qəlbində yer alan müqəddəs anlayışdır. Ulu Öndər bu ideyanı yaşatdı, tətbiq etdi, tarixə yazdı. Müstəqilliyin ən çətin anlarında ölkəni idarə edən mexanizmləri qurdu, hüquqi sistemin təməl daşlarını qoydu və ən əsası - Azərbaycan dövlətçiliyinin davamlılığını təmin edəcək siyasi varislik modelini yaratdı.

Onun Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri şübhəsiz ki, müasir dövrə cavab verən, xalqın iradəsini əks etdirən Konstitusiyanın - Əsas Qanunumuzun hazırlanması oldu. Heydər Əliyev hər zaman hüquqi dövləti, ədalətli cəmiyyəti, insan hüquq və azadlıqlarını ən ali dəyər kimi qəbul etmişdi. Onun bu istiqamətdə atdığı ən mühüm addımlardan biri də 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyasıdır. Ulu Öndər özü bu sənədin mahiyyətini belə ifadə etmişdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun". Bu Konstitusiya yalnız hüquqi sənəd deyildi - bu sənəd azərbaycançılıq ideologiyasının, milli iradənin və siyasi müdrikliyin yazılı ifadəsi idi. Əsas Qanunumuzda təsbit edilən hakimiyyət bölgüsü - qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarının qarşılıqlı balansı, insan hüquqlarına verilən dəyər və azad cəmiyyət müasir dövlətimizin mahiyyətini müəyyənləşdirdi.

Heydər Əliyev çevik düşüncəli, qətiyyətli və uzaqgörən siyasət adamı idi. Amma onu digərlərindən fərqləndirən ən böyük xüsusiyyət xalqına, onun tarixinə, dilinə, mədəniyyətinə sonsuz bağlılığı idi. O, təkcə bir dövlət xadimi deyildi, həm də mənəvi lider idi. Onun bütün fəaliyyəti yalnız iqtisadi rifahın, diplomatik uğurların deyil, həm də milli-mənəvi dirçəlişin üzərində qurulmuşdu. Xalqın ruhunu dirçəltmək, onu tarixi köklərinə, dəyərlərinə bağlamaq, qürur hissini, dövlətçilik məsuliyyətini aşılamaq Heydər Əliyevin böyük missiyalarından biri idi. Tarix boyu çox sayda alimlər, sənətkarlar, filosoflar millətlərin inkişafı üçün çalışıblar. Lakin Heydər Əliyevin xalqı üçün gördüyü işin miqyası və davamlılığı onu tarixdə bənzərsiz bir məqama yüksəldir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə görülən tədbirlər respublikamızda inkişafa səbəb oldu. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra hazırladığı və həyata keçirdiyi inkişaf konsepsiyası sayəsində fundamental çətinliklər aradan qaldırıldı. Qısa müddət ərzində müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi, parlament seçkiləri keçirildi, kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları təmin edildi. Bununla yanaşı, məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində uğurlu addımlar atıldı.

Qısa müddət ərzində Ulu Öndər dağılmaqda olan Azərbaycanı müstəqil ölkəyə çevirdi. Onun praqmatik xarici siyasəti nəticəsində Azərbaycan etibarlı strateji tərəfdaşa çevrildi. 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 7 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi"nin bağlanması Azərbaycanın güclü iqtisadiyyatı üçün zəmin yaratdı.

Ümummilli Liderin bütün fəaliyyətinin əsas məqsədi Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və ərazi bütövlüyünün təmin edilməsi idi. Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli əsas Missiyalardan biri idi. Dahi liderin yürütdüyü xarici və daxili siyasət müstəqil Azərbaycanın əbədiliyinə xidmət edirdi. Tarix, mədəniyyət, ədəbiyyat və dilimizlə Azərbaycançılıq ideologiyasının mənəvi sütunlarını yaradır, xalqı bu çətir altında birləşdirirdi. Ordu quruculuğu, milli ruha sahib vətənpərvər gənc nəslin yetişdirilməsi üçün hərtərəfli işlər görüldü. Təhsilin inkişafı üçün ciddi addımlar atıldı. Hələ birinci dəfə hakimiyyətdə olduğu 70-ci illərdə təhsilin əhatə dairəsi genişləndi, gənclərin ölkə hüdudlarından kənarda təhsil almaları, kadr kimi hazırlanmarı üçün şərait yaradıldı. 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması isə peşəkar milli hərbçilərimizin yetişməsində mühüm amil oldu. Bu qərar müstəqil Azərbaycanın ordu quruculuğunda ciddi faktor idi. Bu liseyin yetirmələri 49 il sonra - 2020-ci il 44 günlük Vətən müharibəsində tarix yazdılar. Göründüyü kimi, ordu quruculuğu, milli ruha sahib vətənpərvər gənc nəslin yetişdirilməsi üçün hələ Sovet dövründən başlayaraq, məqsədyönlü tədbirlər həyata keçirən Ulu Öndərin tarixi missiyasını uğurla davam etdirən Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz Qələbə salnaməsinin əsasını qoydu. 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi və 24 saatlıq antiterror tədbirləri ilə suverenliyimiz bərpa olundu. Cənab Prezident bununla da ata vəsiyyətini yerinə yetirdi. Mərhum prezidentimiz Azərbaycan xalqına, məcburi köçkünlərə söz vermişdi ki, torpaqlarımıza - işğal altındakı rayonlarımıza qayıdacağıq. Onun başa çatdıra bilmədiyi bu işi layiqli davamçısı cənab İlham Əliyev tamamladı. Bu gün Ulu Öndərin ruhu şaddır, çünki onun ən böyük arzusu torpaqlarımızın erməni işğalından azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması idi. Hazırda azad olunan torpaqlarda əsl sahibləri tərəfindən sürətli quruculuq və bərpa həyata keçirilir.

Ümummilli lider hələ sağlığında əfsanələşən, siyasət olimpini fəth etmiş nadir şəxsiyyətdir. Həmkarları onun haqqında həmişə yüksək fikirdə olublar, haqqında heyranlıqla, ehtiramla danışıblar. Onunla təmasda olmuş tanınmış dövlət adamları və siyasi xadimlər Ulu Öndərin böyüklüyünü etiraf ediblər. Onun haqqında ABŞ-ın sabiq Prezidenti Corc Buş "şəksiz lider", Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "türk dünyasının tanınan və sevilən lideri", Rusiya Prezidenti Vladimir Putin "siyasi nəhəng", Fransanın sabiq Prezidenti Jak Şirak "qeyri-adi şəxsiyyət" ifadələrini işlədiblər. Heydər Əliyev şəxsiyyətinin nəhəngliyini illər getdikcə daha yaxşı anlayırıq, onun irsi, keçdiyi ömür yolu, onun özünəməxsus fəlsəfəsi geniş miqyasda araşdırılaraq tədqiqat əsərləri, cild-cild kitablar yazılmışdır. Ancaq bu dahi şəxsiyyətin irsi bitib-tükənməz xəzinə olaraq hər zaman ona üz tutanları heyran qoyur. Bu dühanın nüvəsi isə sevgi, zəhmət, əzmkarlıq və sədaqətdir. Heydər Əliyev hər bir azərbaycanlı üçün müəllim və böyük bir məktəbdir. Biz xalq olaraq bu gün əldə etiyimiz uğurlara görə Ümummilli Liderə borcluyuq. Anadan olmasının 102-ci ildönümündə dahi rəhbəri bir daha ehtiramla anır, onu əbədi olaraq yaşadırıq.

**Mehriban VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**